

SƏNƏ QURBAN CANIM, AZƏRBAYCANIM!

Torpağın ətrini sinəmə çəkdim,
dodağım gül açdı,
ürəyim çiçək.
Xəzər sahilində bir çinar əkdim,
söyüdlər nazlandı
gülümsəyərək.
Dəniz mahnısını oxudu sanki,
ətəyi ləpəli,
qırçınlı Bakı...
Kükrədi ilhamım, qaynadı qanım,
Sənə qurban canım, Azərbaycanım!

Ağ bir şərid kimi uzanıb gedir,
dumanlı, çiskinli,
günəşli yollar,
Bəzisi həyatdan usanıb gedir,
mənimsə yollarda
hekayətim var.
El özü qoruyar axarlı şeri,
dağlar quzey qarı
sərində saxlar.
Bağrıma basmasam hər qarış yeri,
torpaq öz sirrini
dərində saxlar.
Aç söylə, qoy bir də alışım, yanım,
Sənə qurban canım, Azərbaycanım!

Meyvəli bağçalar, bəhərli çöllər,
cllərə can verib,
min şərbət dadır.
Axarlı çaylaqlar, səfalı göllər,
gümüş şəlalələr
bu torpaqdadır.
Hərdən düşüncələr sarır insanı,
çayüstü körpülər
asma yolumdur.
Bağrıma basmışam Azərbaycanı
Araz bir qolumdur!
Kür bir qolumdur!
Əlvan naxışlısan, doğma məkanım,
Sənə qurban canım, Azərbaycanım!

Bu necə mənadır, bu necə hikmət,
deyirlər ağlayır
bulağın gözü.
Danışır təbiət-şair təbiət,
qovağın dili var,
çinarın sözü.
Mənim də boş yerə sözüm olmayıb,
qəlbinə dəymədim
əsla bir kəsin.
Özgə torpağında gözüm olmayıb,
ana torpağıma
göz dikilməsin!
Əmr et! Keşiyində mətin dayanım,
Sənə qurban canım, Azərbaycanım!

ODLAR VƏTƏNİ

Könlümün tərlanı qalxmış cövlana,
Çıxmışam qoynunda yenə seyrana,
Eşqin cansızı da gətirir cana
Sevda beşiyində bəslədin məni,
Ey odlar vətəni, odlar vətəni!..

Əsir xəfif-xəfif səhər mehləri,
Atır rübəndini qızıl dan yeri.
Sən yar gülşənisən, mən eşq şairi
Şirin laylalarla gəl, oxşa məni,
Ey odlar vətəni, odlar vətəni!..

Tərlan səhərlərdə doğulmuşam mən,
Nəcib məhəbbətdən yoğrulmuşam mən,
Cilvəli tovuzam, azad quşam mən,
Uçurt, ərşə qaldır şahintək məni,
Ey odlar vətəni, odlar vətəni!..

Vurğunu olmuşam səmimiyyətin,
Zərif rübabıyam pak ülviyyətin,
Sən ey qadir ana, bu xoş niyyətin
Qurub-yaratmağa çağırır məni,
Ey odlar vətəni, odlar vətəni!..

Çəkdim keşiyini fırtınalarda,
Fəlakət önündə, ölümdə, darda,
Döndüm pak qoynuna bir ilk baharda
Eşit, candan artıq sevirəm səni,
Ey odlar vətəni, odlar vətəni!..

VƏTƏNİM VAR

Bakı – şəhərim mənim,
Xəzər – bulağım mənim.
Dağlar – hünərim mənim,
Günəş bayrağım mənim,
Dünyada nə qəmim var.

Yaşaram arzularda,
Bu nazəndə baharda.
Nə çovğunda, nə qarda
Qərq olmaram sularda,
Nəğmədən yelkənim var.

Yer üzündə biz gərək
Ömr edib, dövran sürək.
Hələ cavandır ürək...
Azərbaycan eli tək
Əbədi gülşənim var.

Doğma Azərbaycanım,
Sənsən mənim həyanım.
Al şəfəqə boyanım
Keşiyində dayanım,
Dayanım, Vətənim var!

AZƏRBAYCANIM

Əziz vətənim,
sevdalı diyar,
Ana qoynunda
oldum bəxtiyar.
Mingəçevirim
nurlu çələngdir.
Doğma Bakımız
şərqdə nəhəngdir.
Kürüm-Arazım
qoşa çayımdır,
Azərbaycanım
günüm-ayımdır.
Muğandan keçib,
Mili dolaşdım,
Şirvan boyunca
eli dolaşdım.
Mənə Naxçıvan –
buyur, gəl – dedi,
Gözəl Qarabağ
şərqilər dedi.
Kürüm – Arazım
qoşa çayımdır,

AZ -235314.

Azərbaycanım
günüm-ayımdır.
Şəki yolları
dolaybadolay,
Quba bağları
yurdumuza pay.
Gəl, yaylaq gözəl,
gəl, aran gözəl,
Astara qəşəng,
Lənkəran gözəl.
Kürüm-Arazım
Qoşa çayımdır,
Azərbaycanım
günüm-ayımdır.
Xəzərə bax bir
gümüş aynadır,
Sumqayıt yenə
polad qaynadır.
Paytaxtım mənim,
ay baxtım mənim,
Sən nə gözəlsən
doğma vətənim.
Kürüm-Arazım
qoşa çayımdır,
Azərbaycanım
günüm-ayımdır.

BAKI
BİR BAKIDIR Kİ...

Yığıb son qüvvəsini,
Gecə əriyib gedir.
Hər tərəfə uzanan,
Öz qara tellərini
Əlindəki yumağa
Sanki səriyib gedir...

Toranlıqlar içindən,
Dan yeri uçub gəlir
Tənha qağayı kimi
Dalğalar qalxıb-enir,
Yarını yola salan
Bir qızın əlindəki
İpək kəlağayı kimi.

Bakı, gur səsli Bakı,
Sərt küləklər şəhəri,
Oyadır yavaş-yavaş,
Yuxusundan səhəri.

Qapılar açıldıqca,
Çoxalır bir-bir
Bakı fəhlələrinin
Sübh ikən qar üstünə
saldığı ləpir.
Bu ləpirlər uzanır
Düz tramvay xəttinə.
Fabriklərə, zavoda
Buruq səltənətinə...
Qara şəhər sabahı
Qarşılayır üzüağ,
Zəfərdən verir soraq!

Qaynarsan gənclik kimi,
Sevimli, gözəl Bakım!
İnqilablar şəhəri,
Ey beynəlmiləl Bakım!
Əriyir hər yerdə qar.
Çünki yaz nəfəslidir,
İndi bizim insanlar.

Abşeronun gözündən,
Minlərlə ulduz-ulduz
buruqlar baxır.

Abşeronun qəlbindən,
Göz ilə görünməyən
Daşqın nəhrlər axır.
O qızıl nəhrlərin
Hər damlası nurludur.
O sonsuz nəhrlərin
Yanında böyük Xəzər
Sanki bir ovuc sudur.

Mən bu Bakı neftinin
Kuybışevdə hər axşam,
Qüdrətinə baxmışam.
Addımlayan maşınlar
Gəzdikcə kanal boyu
Türkmənistan düzünü, –
Mən, bax, orda duymuşam,
Qızıl Bakı neftinin
Şərə sığmaz gücünü.

Bakı bir Bakıdır ki,
Mehriban sinəsində
Ömür sürmək gözəldir.
Bakı bir Bakıdır ki,
Onun günəşə baxan
Aynabəndi Xəzərdir

Yaşıl şam meşələri
Park üstündən uzanır,
Boz təpəli Bayıladək.
Dəniz buruqlarını
Yarıb keçən küləklər
Səslənir bir layla tək.

Deyirəm nə olaydı
Bu şerim çağlayaydı
Qəlbimin qanı kimi.
Sabir bağçasındakı
İşıq fantanı kimi.

Deyirəm nə olaydı,
Bir ağ göyərçin olub,
Qanadımı açaydım.
Günəşli paytaxtımın,
Buludsuz göylərində
İftixarla uçaydım.

Bakı, Bakı, can Bakı!
Düşməninə qəzəbli,
Dosta mehriban Bakı!

Bəzən bir rəssam olub,
Səni yaratmaq üçün
Fırçama rəng gəzirəm.
Bəzən də şair kimi,
Şerin köhnə vəzinə
Yeni ahəng gəzirəm.

Sıx buruqlar meşəsi
Dövrəyə almış səni
Böyük sülh alayı tək.
Şerimi bəzəyirsən,
Qucağında görünən
Hökumət sarayı tək.
Bakı –
Nərimanov küçəsilə
Mən fərəhlə gedirəm.
– Bakılıyam! – dedikcə,
Bu adla fəxr edirəm.
Bakı –
Azərbaycan prospekti
Gündəlik iş yolumdur.
Bu yol adi yol deyil,
Bir yüksəliş yolumdur!

Mən bu yolda ilk dəfə
İstiqlalın əlini
Sıxacağam fərəhlə.

Yurdumun çağrışından
Hər zaman qalib kimi
Çıxacağam fərəhlə.

Gündüz sovuşub gedir,
Düşür axşam ayazı;
Çiçək kimi yağan qar
Yada salır ilk yazı.
Çünki Bakı qışının
Gözəlliyi başqadır.
Təbiətin hər fəsli
Burdakı insanları
Şən, bəxtiyar yaşadır.

Sahil boyu işıqlar,
Dənizin sinəsində
Gülür silsilə kimi,
Qoca Nargin görünür
Mavi göz içindəki
Qara bir gilə kimi.

Paytaxtımın gecəsi
Yolum kimi nurludur;
Sinəsi işıq verən
Ulduzlarla doludur.
Bakı bir Bakıdır ki,
Onun ana qoynunda
Neçə millət birləşib.
Bakı bir Bakıdır ki,
Beş gün onu görməsən
Qayıdanda şaşırıb,
Yeni evlər, binalar,
Meydançalar içində
Ünvanını gəzərsən.

Bakı bir Bakıdır ki,
Onun işıqlarıyla
Neçə torpaq, neçə yer,
Neçə ölkə bəzərsən.

Şərimi bayraq kimi
Sahilinə sancaraq
Keşiyində durmuşam;
Əsrlərcə insanı
Özünə qul eyləyən
Təbiəti yormuşam.

Bakı öz qatarını
Gələcəyə doğru sürür.
Bu işıq qatarını
Min Bakı oğlu sürür.
Bakı oğlu dedim mən –
Bu adi söz deyildir.

Bu odlar ölkəsinin
Qəlbi bahar oğludur.

Bakı dedim –
xalqımın
ötən ağır illəri
lövhə-lövhə göründü.

Bakı dedim –
hər tərəf
Al şəfəqə büründü.
Bakı dedim –
ömrümün
Sirdaşını düşündüm.
Bakı dedim –
min zəfər
qazandıq iş başında.
Bakı dedim –
bir anda
ellərin sədaqəti
Durdu mənim qarşımda.
Ey dost, sual eləsən:
– Tərənnüm eylədiyin

Bu duyğular də, nədir?
Cavab verərəm ki, mən,
Bu müdrik xalqımızın
Ölməz əməllərindən,
Paytaxtımda yaranmış
Kiçik bir nişanədir!..

SƏHƏR

Baxıb sübhün gül üzünə,
Durub çıxdım mil düzünə.
Gördüm çöllər nemətlidir.
– Var ol! – dedim şən Vətənə.
Yurdum dedi: – Bu təntənə
Övladımın qüdrətidir.

Günəş zərli çələng hördü.
Şair könlüm onu gördü,
Qalxdı bir söz desin ona,
Günəş bu vaxt gülə-gülə
Cavab verdi şadlıq ilə:
– Bu töhfəmdir el oğluna!..

Gəzdim vətən gülzarını,
Öpüb gülün rüxsarını,
Dedim: – Sənə vurulmuşam.
Gül dedi ki: – Şair oğlan,
Sənə bu şeh damlasından
Bir piyalə doldurmuşam!..

Hara baxdım, əmək coşdu,
Fərəhlənib ürək coşdu.
Dedim: – Alqış el adına!
Gümüş donlu, gen tarlalar
Dedi: – Ölməz eşqimiz var,
Azərbaycan övladına!..

QAYĞI

Üzümü söykəyib öpdüm torpağı,
mənə şoran yerdə
bənövşə verdi.
Gur bir kəhriz atıb, suvardım bağı,
qolunu çətir tək
üstümə gərdi.
Təzə kanal çəkdim Muğan düzünə,
şəklimi əks etdi
ayna suyunda.
Nur verdim nişanlı gəncin gözünə,
Toybəyi seçildim
Onun toyunda.
Səhər sürüləri düzə hayladım,
Yaşıl biçənəklər
Üzümə güldü.
Torpağa can verib, qida payladım,
Ovcuma min dürlü
Bəhər töküldü.
Əməkçi qızların şəninə yazdım,
Heç kəs bilmədi ki,
Yazan kim oldu.
Axşam həmin kəndin içində azdım,
O qızlar ən yaxın
Bələdçim oldu.
Fəzalar dolaşıb Ayı fəth etdim,
O, qızıl gerbimi
Döşündən asdı...
Nakam bir ananın evinə getdim,
Məni oğul kimi
Bağrına basdı.
Ey torpaq üstündə ömür sürən kəs,
Qulaq as qəlbimdən
Gələn bu səsə:
Həyatda heç kimsə sənə can deməz,
Səndən zərrə qədər
Qayğı görməsə!

ZİRVƏ YOLU

Tapdalama yolları,
Yollarda az iz qalar.
Təzə cığır aç barı,
El üçün əziz qalar.

Dərələrə enincə,
Sal qayada dur uca...
Danış incə, din incə,
Su kimi ax – duruca.

Hərə açıb bir cığır,
Hərə bir ahəngdədir.
Qızlar çöldən gül yığır,
Hərəsi bir rəngdədir.

Başqa bir yola uysan,
Sıldırımdan aşarsan.
Özün özünü duysan,
Sevgi kimi yaşarsan.

Lazım qəlsə, çəkinmə,
Tikanlıqla yeri sən,
Təzə sözlü olarsan
Öz izinlə yerisən.

Bir cığır açsın hərə,
Şaxlıdır şerin qolu.
İnsanı zirvələrə
Qaldırır zirvə yolu...

ÇİÇƏK TƏRANƏSİ

Verib qaranquşa xoş gülüşünü,
Yazın nəfəsini torpaqdan soruş.
Bahar bayramının ilk gəlişini,
Çiçəkdən xəbər al,

Yarpaqdan soruş.
İncə qədəm basıb, çıx yaşıl döşə,
Bahara bəxş elə əhdi, ilqarı.
Dəlib quzey qarı sısqa bənövşə,
Boynunu bükəndə
Görəydin barı.
Görəydin gədikdən sular daşanda,
Uçrumdan buz qopub çaya düşəndə.
Ağ durna dalğalar qaqqıldaşanda
Əks səda verib,
Dağ gülüşəndə.
Dalıb təbiətin şeriyyətinə,
Bir mahnı deyəydin bahar eşqinə.
Bahar təzə sözlü şairə bənzər,
Onun hər lövhədə bir incisi var.
Yazı saf qoynuna alanda Xəzər,
Zümrüd paltarını
Geyir dalğalar.
Baxıb nur çələngli şəhərə sanki,
Qəlbimdən süzülən nəğməni yaydım:
– Bakının aypara sahilindəki
Məcnun söyüdlərə tel darayaydım.
Yamaca tül kimi səpilən çən,
Sinəmə çəkmişəm dağ nanəsini.
Ayna bulaqlardan eşitmişəm mən,
Əlvan çiçəklərin
Təranəsini...
"Şehdərən" çiçəyi sırğa taxanda,
Bərq vurub öyünür o, bütün yayı.
"İstisu", oxuyur sənin yaxanda
Buxağı mixəkli
Dağ torağayı.
Var ol, döşü güllü, zirvəsi qarlı,
Mənim ana yurdum, doğma məkanım.
Ətəyi bəhərli, başı vüqarlı,
Ürəyi baharlı
Azərbaycanım!..

HECA VƏZNLİYƏM MƏN...

Musiqi kimi incə,
Zərif bir bəstədir söz.
Nə vəzndə – hecada,
Nə də sərbəstdədir söz,
Layla sevən körpətək
Qulağı səsdədir söz.
Azərbaycan şeritək
Qoca vəznliyəm mən;
Minbir bulaq axarlı
Heca vəznliyəm mən!

Vaqifin, Ələsgərin,
Hər sözü el malıdır.
Füzuli, Sabir kimi
Vurğun da qalmalıdır!
Vəznim qarlı dağımdır –
Gümüşdən çalmalıdır.
Azərbaycan şeritək
Qoca vəznliyəm mən;
Minbir bulaq axarlı...
Heca vəznliyəm mən!

Xalqa mehriban olan,
Hər obaya yovuşan.
Sözü dumanlı deyən
Bir çən olub sovuşar.
Eli sevən sənətkar
Eldən-elə qovuşar.
Azərbaycan şeritək
Qoca vəznliyəm mən.
Minbir bulaq axarlı
Heca vəznliyəm mən!

Xəzərimin dalğası
Holaylıdır, cəngidir,
Şerim Azərbaycanın

Dilinin ahəngidir.
Zəif şeir əsrimin
Sürətini ləngidir.
Azərbaycan şeritək
Qoca vəznliyəm mən.
Minbir bulaq axarlı
Heca vəznliyəm mən!

Süni gəzib dolansan
Evdə də, konarda da.
Bu el-oba oxşadar
Səni gəlməyə, yada.
Vətən üçün, xalq üçün
Söz qalacaq dünyada.
Azərbaycan şeritək
Qoca vəznliyəm mən.
Minbir bulaq axarlı
Heca vəznliyəm mən!

Yüz illərdir yaşayır
Qurbani, Yanıq Kərəm.
Bu yollarda əzəldən
Mən də yanar ülkərəm.
Dil bilməyən şairi
Mən yeddi qat bükərəm.
Azərbaycan şeritək
Qoca vəznliyəm mən;
Minbir bulaq axarlı
Heca vəznliyəm mən!

ƏBƏDİ BEŞİK

Babamızın
kölgəli
çətri bu torpaqdadır,
Qəbri bu torpaqdadır.

Nənəmizin
gül kimi
Ətri bu torpaqdadır.
Qəbri bu torpaqdadır.
El qədrini bilənin,
Qədri bu torpaqdadır,
Qəbri bu torpaqdadır.

Mən də qızıl şahinəm,
Aranlıyam, dağlıyam!
Ulu əcdadım kimi
Torpağıma bağlıyam.

O, olum beşiyimdir,
O, ölüm beşiyimdir!...

QƏDİM ŞƏHƏRİM

Yenə yolum düşdü Gəncəbasara,
Meh əsdi, güllərin dodağı qaçdı.
Bu yer söz mülkünü alıb hasara,
"Xəmsə"ni, qürurla önümdə açdı.
Göy kaşı gümbəzlər, boz minarələr,
Kərpici xınalı qalın divarlar,
Hər saray ölməyən canlı bir əsər
Burda Məhsətinin söz incisi var.
İncəlik həmişə incədə qalır,
Tarix də qocalıb Gəncədə qalır.

* * *

Baxıram, aranlı-yaylaqlı şəhər
Gah düzə çağırır, gah dağa məni.
Qəlbimdə çırpınan bu döyüntülər
Elə bil səsləyir uçmağa məni.
Qoşqara qalxımmı, dəli Qoşqara,
Yolum "Xaçbulağa" düşsünmü bir də?

Mən sadiq şairəm əhdə, ilqara,
Gəzirəm Ələsgər gəzdiyi yerdə.
Gözüm min qızılı qönçədə qalır,
İlhamım yurd salıb Gəncədə qalır.

Hacıkənd yolları burum-burumdur,
Hər dolay başında bir ocaq yanır.
Meşələr çətrimdir, dağ qürurumdur,
Burda qanad çalıb xəyal dayanır.
Ellər tunc zirvəyə qartal deyibdir,
Bu yerin Kəpəz tək bir qartalı var.
Bir şair Göygölə maral deyibdir,
İndi Göygölümün öz maralı var.
Bu eşq qocaya da, gəncə də qalır,
Gözəllik çələngi Gəncədə qalır...

* * *

Şəhərə qayıtdım çoxaldı dərdim,
Min işıq karvanı qəlbimə axdı.
Bakım olmasaydı, qalxıb deyərdim:
– Gəncədir yurdumun qədim paytaxtı!
Məni qınamasın sevimli dostlar,
Şairəm, şerimin söz meydanıdır.
Bu yerdə Əcəmi naxışları var,
Bura göy çinarlar xiyabanıdır,
Çünki sənət evi Gəncədə qalır.
Nizami Gəncəvi Gəncədə qalır.

BAYRAM TÖHFƏSİ

Nəcib, düşüncəli bir bəstəkar qız,
Piano önündə oturmuş yalqız.
Şirmayı dillərdə gəzdirdikcə əl,
Bir mahnı yaradır incə, şən, gözəl.
Bax bu da xoş günə – bayram gününə,

Qurbanı olduğum vətən mülkünə
Bayram töhfəsidir,
Sevinc səsidir.
Başqa bir aynabənd otaqda da bax,
Bir şair oturmuş fikrə dalaraq.
Onun qələmindən süzülür inci,
O ağ vərəqlərə düzülür inci.
O duyub düşünür, sevinib gülür,
Sanki gözlərindən sevda tökülür,
Bax bu da xoş günə – bayram gününə,
Qurbanı olduğum vətən mülkünə
Bayram töhfəsidir,
Sevinc səsidir.
O yanda, Boz Dağın ətəklərində,
Uca bir qayanın sərin yerində
Mahir bir mühəndis kəşf edir yenə,
Torpağın ən bakir sirrlərini,
Bizə şəfa verən bayram şəninə
Qurtarır fərəhlə öz əsərini...
Bax bu da xoş günə – bayram gününə,
Qurbanı olduğum vətən mülkünə
Bayram töhfəsidir,
Sevinc səsidir!..
Şubay buruqlara qüvvət, can verən
Bir buruq ustası odur səhərdən
Yerin qatlarından çəkir qara qan.

Bir azdan parlayıb yenə qızıl dan,
Qəlbləri oxşayan minbir rəng görüb,
Qızıl şəfəqlərdən bir çələng hörüb.
Qoyur mərd başına qəhrəmanların,
İdraklı, hünərli bu insanların.
Bax bu da xoş günə – bayram gününə,
Qurbanı olduğum vətən mülkünə
Bayram töhfəsidir,
Sevinc səsidir.
Ey könül, bu həyat, bu nurlu sabah

Sənə də bəxş etmiş ilham sazını,
Tərənnüm eylə sən coşub bir daha
Qoy ellər dinləsin xoş avazını!
Bax bu da xoş günə – bayram gününə,
Qurbanı olduğum vətən mülkünə
Bayram töhfəsidir,
Sevinc səsidir.

ÜÇÜNCÜ HƏRB İSTƏMİRİK!

I

İlkin cahan vuruşunda,
Yağılara olub qənim,
Atam mənim
Hərbə getdi.
Suvarilər yürüşündə
Şərqə getdi,
Qərbə getdi...
Nə qəbrini, ünvanını,
Nə öldüyü yeri bilidim.
Ürəyimdə qəm karvanı,
Kəsik gülüb,
Ağır dindim...
Sonbeşikdim, ilk çağaydım,
Bir tupurca qağayıydım,
Anam tutub ər yasını,
Belə dedi laylasını:
– Qəm oduna tutulmuşuq
Biz poladıq,
Biz dəmirik!
Birincidən sovuşmuşuq,
İkinci
Hərb
İstəmirik!
İstəmirik!

II

İllər keçdi...
Oğul oldum,
Atam kimi yaşa doldum.
Qulağında
Sərkərdəmin hər öyüdü,
Məğrur nəslim mərd böyüdü.
Topdağıtmaz bir səngərdim,
Faşistlərə sinə gərdim,
Şığıdım mərd suvaritək...
Yavan arpa çörəyitək
Mən qovrulub sacda qaldım.
Tox da qaldım,
Aç da qaldım.
Qılınc çəkib çətinliyə,
Anam qara bağlamadı,
Özüm gördüm, ağlamadı.
Dedi: – oğul,
Yenə qəmə tutuşmuşuq,
Biz poladıq,
Biz dəmirik.
İkincidən sovuşmuşuq,
Üçüncü
Hərb
İstəmirik!
İstəmirik!

III

Saclarımda gümüş tozu...
Masam üstə,
İki hərbdə yazı-pozu...
O günlərdən
Ürəklərdə xal qalıbdır.
Gözümüzdə, –
Həsrət adlı yol qalıbdır –
O yol gedib oğullarla...
Bir də görən o yollarla
Dönəcəkmi Novruz dayı,

Qohum,
Qardaş,
Əmi,
Dayı?...
Ürəyimə olub qənim,
Həsrət məni didə bilər.
Əsgər yaşlı oğlum mənim,
Gedə bilər!..
Gedə bilər!..
Nişanlı qız,
Durub yalqız
Eşitməsin top səsini.
Qoy analar,
Qoy atalar,
Yaysın qəzəb nəğməsini:
– Birincidə
Ağır həyat sürmüşük biz.
– İkincidə
Min bir dəhşət görmüşük biz.
Biz palıdıq,
İndi daha tunc olmuşuq,
Biz poladıq
Üçüncü
Hərb
İstəmirik!..
İstəmirik!

TANIŞ GÖZLƏR

Şəhəri aramla gəzirəm yenə,
Qəlbimdə həyatın zövqü, nəşəsi.
Dünyada hər yerdən xoş gəlir mənə
Bu Şərqin qapısı, Şərqin guşəsi.

Baxıram gözlərə, tanış gözlərə,
Dönüb zənd salıram azı yüz kərə.
Birisi xəyala daldırır məni,
Anıb düşünürəm uzaq cəbhəni.

Hərdən fişəng yanır, dinir avtomat,
Dayanmış üz-üzə ölümlə həyat.
Alıb şəhidlərin intiqamını,
Yarırıq düşmənin istehkamını.
Çatıb son mənzilə, görüşürük biz.
Sevincdən yaşarır kipriklərimiz.
Yaddan çıxmışdısa indi o düzlər,
Düzlər o düzlərdir, gözlər o gözlər...

Baxıram gözlərə, tanış gözlərə,
Söz qoşum onlara azı yüz kərə.
O gözlər göl kimi durudur yenə,
O gözlər gözümün nurudur yenə.
O gözlər açılsa, güllər naz satar,
O gözlər yumulsa, kainat yatar.
O gözlər ömrümün gülən yazıdır,
O gözlər eşqimin ilk aynasıdır.
Bir vaxt bu aynada özümü gördüm,
O gözlər içində gözümü gördüm.

* * *

Gəlib salam verib görüşür, hərə,
Baxıram gözlərə, tanış gözlərə.
Birində yamyaşıl tarlalar gülür,
Meyvəli baxçalar əlvan görünür.
Birində göylərə qalxır binalar,
Üz-üzə, göz-gözə baxır binalar.
Birinə elə bil bulaqlar dolur,
Ləpəsiz, dalğasız mavi göl olur.
Birində dil açıb gülür körpələr,
Birisi ulduzdur, birisi ülkər.
Bütün bu gözlərdə həyat var deyə,
Məftun kəsilirəm hər gözəlliyə.
Bu vaxt ürəyimdən gəlir bir xəbər:
– Bəsdir, ey şairim, susma bu qədər!
Hər nə var qəlbində danış gözlərə,
Bu tanış gözlərə, tanış gözlərə!

RÜBABIYAM ÜLVİYYƏTİN

Könlümün tərlanı qalxmış cövlana,
Çıxmışam qoynunda yenə seyrana.
Eşqin cansızı da gətirir cana,
Sevda beşiyində bəslədin məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Əsir xəfif-xəfif səhər mehləri,
Atır rübəndini qızıl dan yeri,
Sən yar gülşənisən, mən eşq şairi,
Şirin laylalarla gəl oxşa məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Tərlan səhərlərdə doğulmuşam mən,
Nəcib məhəbbətdən yoğrulmuşam mən,
Cilvəli tovuzam, azad quşam mən,
Uçurt, ərşə qaldır şahin tək məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Vurğunu olmuşam səmimiyyətin,
Zərif rübabıyam pak ülviyyətin,
Sən ey qadir ana, bu xoş niyyətin
Qurub yaratmağa çağırın məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Çəkdim keşiyini fırtınalarda,
Fəlakət önündə, ölümdə, darda
Döndüm pak qoynuna bir ilk baharda,
Eşit, candan artıq sevirəm səni,
Ey odlar Vətəni, odlar Vətəni!

Mənim adi günlərim

KİM Kİ, ÜRƏYİNƏ ARXALANMASA

Zərli albomunu açıb təbiət,
Göstərir ecazkar lövhələrini.
Bu zaman hiss edib bir yeni qüvvət,
Açaraq könlümün can dəftərini.
Dalıram xilqətin dilbər seyrinə,
Lakin yurdumuzun gözəlliyinə
Çatmayır şerimin rəngi, boyası.
Deyirəm: – Çətindir şeir dünyası.
Tərk et mənliyimi, ey ilham pərim.
Gəzmə şeir – sənət gülzarında sən.
Boş yerə axmasın qoy alın tərim,
Başqa bir yol seçim bu dünyada mən.
Ürəyim dil açıb deyir: – Qulaq as!
Sən mənə bağlısan, gəl batma yasa.
Bil ki, o adamdan sənətkar olmaz,
Əgər ürəyinə arxalanmasa.

MƏNİM ADİ GÜNLƏRİM

Siz ey adi günlərim,
Tərk etdikcə məni siz,
Ötənlərə baxıram,
Axıram, hey axıram.
Mavi gözlər bir dəniz.
Deyirəm ləpələrin

Zərif yelpinci olam.
Bələkə tutqun bir qəlbin
Adi sevinci olam.
Bunsuz söylə, kiməm mən?
Hökmü yürügül, vəzni yox,
Adi bir hakiməm mən.

Mənim adi günlərim.
Ey təzadlı günlərim.
Ey adsız,
Ey qanadsız,
Ey qanadlı günlərim.
Dalğadan baş qaldırır,
Qaya ucalmaq üçün.
Süni ucalmaq hissi
Mənə heç yaraşmayır.
Zirvələr baş qaldırır,
Aya ucalmaq üçün.
Yöndəmsiz ucalandan
Xalqıma kar aşmayır.
Mənim adi günlərim,
Sizə qurban kəsim mən.
Siz kişi günlərsiniz,
Üstünüzdə əsim mən.
Əsim mən yarpaq kimi,

Tökülüm mərdanə mən.
Dostların ürəyində
Qoy olum durdanə mən.
Siz bəzən hafizəmdə,
Qarışıq günlərsiniz.
Bəzən şıltaq, rəhmli,
Barışıq günlərsiniz.
Mənim adi günlərim,
Ey şəfəqli günlərim.
Bir-birinə bənzəməz,
Siz ey fərqli günlərim,

Siz sükutun,
Mən sözün
Ayrıcında üşürəm.
Söz xəmirim yoğrulmasa,
El saçından üşürəm.
Gür işıqda sönərəm.
Bir zülmətə dönərəm,
Yox olaram, itərəm...
Düşmənlərim gülməsin,
Məni aciz bilməsin,
Yenə də baş qaldırıb
Torpağımda bitərəm...
Açaram çiçək kimi,
Vuraram ürək kimi.
Sükutla yoxdur aram,
Döyünərəm, susmaram.
Mənim adi günlərim,
Um-küsülü,
Bükülü,
Ey açılı günlərim.
Ey dadlı,
Ey nabatlı,
Ey acılı günlərim.
Siz asta getsəniz də,
Ömrümdən düşürsünüz.

Gəlin can otağıma,
Yel dəyər üşürsünüz.
Elə günlər olub ki,
Hamıdan seçilmişəm,
Elə vaxtlar olub ki,
Sizi boş keçirmişəm,
Utanmışam əqrəblər
On ikiyə çatanda.
Qızarmışam, ilhamım
Gül yastıqda yatanda...

Mənim adi günlərim.
Dili bütöv günlərim.
Həlim,
Qaba,
Mehriban,
Hərdən köntöy günlərim.
Ey toylu,
Yaslı,
Qəmli,
Üzəgülər, sitəmli,
Qeyri-adi günlərim;
Siz mənə əzizsiniz.
Ey təzadlı günlərim,
Mənim adi günlərim...

SƏNİ

Durna qatarıdır, uçan arzular,
Sevdalı qəlbimdə bir nisgilim var.
– Duyardım saçının ətrini ey yar,
Min gülzar içindən seçərdim səni.

Aşiqəm məhəbbət təranəsinə,
Qulaq as könlümün incə səsinə.
– Əgər süzülsəydin eşq badəsinə,
Şirin şərbət kimi içərdim səni.

Gündüzlər günəşdim, gecələr aydım,
Ulduzlu göylərə nəğməmi yaydım.
Vüsal çəmənində alaq olsaydın,
Hicran orağıyla biçərdim səni.

SƏNSİZ

Sol döşüm üstündə yatdım bu gecə,
Ürəyim dil açıb, dedi gizlicə:
– Mən səni yaşadıb, mən səni duydum,
Mən sənin yolunda ömrümü qoydum.

Dedim: – Dinlə könül, mən də bir siməm,
Dostluğa mətinəm, sevgiyə yaram.
Sənsiz bu dünyada, heçəm, heç kiməm,
Ürəkdən yaradan bir sənətkaram.

SƏNSƏN

Göydə qövsi-qüzehim,
Yerdə gül üstdə şehim – sənsən!

Masam üstdə işığım,
Evimdə yaraşığım – sənsən!

Pəncərəmdə küləyim,
Ürəyimdə ürəyim – sənsən!

Dərmanım-davam mənim,
Ən təmiz havam mənim – sənsən!

Dəryada nadir incim,
Həyatda ilk sevincim – sənsən!